**Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi-Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılmasına dair 2020-ci ildə həyata keçirilən fəaliyyət haqqında ümumiləşdirilmiş**

# MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası" (bundan sonra – Qayda) təsdiq edilmişdir. Qaydaya əsasən aşağıda qeyd olunan dövlət orqanları qeyri-hökumət təşkilatlarına qrantların verilməsini Şura ilə razılaşdırmalıdır:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi
6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
10. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
11. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
12. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası

Qaydanın icrası ilə bağlı Şuranın 2019-cu il 17 yanvar tarixli 01 (216) nömrəli qərarı ilə bu sahədə fəaliyyətin təşkilati-metodiki əsaslarını nəzərdə tutan müvafiq təlimat qəbul edilmişdir. Təlimatın əsas məqsədi dövlət orqanları tərəfindən verilən qrantlar vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların qiymətləndirilməsi və bu qrantlara dair rəylərin şəffaf, obyektiv və operativ qaydada təqdim edilməsindən ibarətdir. Qaydaya uyğun olaraq hazırlanmış elektron proqram vasitəsilə dövlət orqanları tərəfindən təqdim olunmuş məlumatlara dair rəylərin verilməsi Şura üzvləri və Şura Katibliyinin əməkdaşlarından ibarət tərkibdə və kollegial qaydada fəaliyyət göstərən Komissiya tərəfindən həyata keçirilir.

Qaydaya əsasən dövlət orqanlarının qeyri-hökumət təşkilatlarına qrantların verilməsi Şura ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Gənclər Fondu ilə iki mərhələ üzrə razılaşdırılır:

- 1-ci mərhələ: müsabiqələrə və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzulara dair məlumatlar;
- 2-ci mərhələ: müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatlar.

Qaydanın icrası ilə əlaqədar Şura 2020-ci il ərzində dövlət orqanlarından daxil olan müraciətlərə baxmış və onları müvafiq tələblərə uyğun olaraq cavablandırmışdır.

**1-ci mərhələ üzrə** 2021-ci il üçün müsabiqələrin və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların razılaşdırılması ilə bağlı Qaydaya uyğun olaraq 2020-ci ilin dekabr ayının 30-dək aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 30 mövzu üzrə 2 müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur;
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 4 mövzu üzrə 2 müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur;
3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 4 mövzu üzrə 4 müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

**2-ci mərhələ üzrə** 2020-ci ildə müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları və onların təqdim etdikləri layihələrin Şura ilə razılaşdırılması məqsədilə aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 1 104 482,0 manat məbləğində 14 layihə təqdim olunmuşdur. Şura təqdim olunan layihələrin heç birinə müsbət rəy verməyib;
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 494 957,24 manat məbləğində 36 layihə təqdim olunmuşdur. Nazirlik tərəfindən üstünlük verilən və ümumi məbləği 94 000,0 manat təşkil edən 11 layihəyə Şura müsbət rəy vermişdir.
3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 36 000,0 manat məbləğində 2 layihə təqdim olunmuşdur. Komissiya tərəfindən üstünlük verilən və ümumi məbləği 21 000,0 manat təşkil edən 1 layihəyə Şura müsbət rəy vermişdir.

Qaydanın 1.3-cü bəndinə əsasən Gənclər Fondu tərəfindən 2020-ci il ərzində görülən işlər barədə məlumatlar Şuraya təqdim olunmuşdur.

Gənclər Fondu tərəfindən təqdim olunan məlumatlara əsasən:

**1-ci mərhələ** üzrə 2021-ci il üçün müsabiqələrin və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzuların razılaşdırılması ilə bağlı Qaydaya uyğun olaraq 2020-ci ilin dekabr ayının 30-dək aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Gənclər Fonduna təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 30 mövzu üzrə 2 müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur;
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 4 mövzu üzrə 2 müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur.

**2-ci mərhələ üzrə** 2020-ci ildə müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları və onların təqdim etdikləri layihələrin Gənclər Fondu ilə razılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 14 layihə təqdim olunmuşdur. Nazirlik tərəfindən üstünlük verilən və ümumi məbləği 395 962,0 manat olan 1 layihəyə Gənclər Fondu müsbət rəy vermişdir.